# Böyük hüquqi, siyasi və ideoloji potensiala malik Əsas Qanun

## *Azərbaycan Konstitusiyasının qəbul olunmasından 25 il ötür*

***Azərbaycan Respublikası Konstitusiyasının xarakterik cəhətlərindən biri onun sabit olmasıdır. Bununla belə, cəmiyyətimizin sürətli inkişafı ölkənin Əsas Qanununun da təkmilləşdirilməsini şərtləndirmişdir. Belə ki, ... keçirilmiş referendumlar, habelə qəbul edilmiş bir sıra konstitusiya qanunları vasitəsilə Konstitusiyaya insan hüquqlarının qorunmasının və dövlət idarəçiliyinin səmərəliliyinin artırılmasına yönəlmiş mühüm dəyişiklik və əlavələr edilmişdir... Universal dəyərlərə əsaslanan Azərbaycan Respublikasının Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının firavanlığına xidmət edir.***

**Prezident İlham Əliyevin Azərbaycan Respublikası Konstitusiyasının 20 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına məktubundan**



***Yaşımız, çalışdığımız kollektivin nüfuzu və cəmiyyətdə tutduğumuz mövqe tələb edir ki, dəqiq bilmədiyimiz hansısa məsələni qələmə almayaq. Allaha şükür ki, bu prinsipi qoruyub saxlamağı bacarırıq. Ancaq indi elə bir məsələni yada salmaq istəyirəm ki, onu dəqiq bilməsəm də, inandırıcı olduğuna şübhə etmirəm. Belə ki, efirdən eşitdiyimə görə, Ermənistan Avrasiya məkanında qonşu ölkələrə ərazi iddialarını Konstitusiya ilə rəsmiləşdirmiş yeganə dövlətdir (başqa hansısa ölkədə də belə fakt olacağından ehtiyatlanıram). Yəni separatçılıq, işğalçılıq, ilhaqçılıq bu xalqın qanında, dövlətin isə əsas qanunundadır. Ona görə də ermənilər çoxlarının nifrətini qazanıblar.***

Bu gün 25 yaşı tamam olan Azərbaycan Konstitusiyasında isə "Ərazi" adlı 11-ci maddənin birinci bəndi "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir" şəklində təsbit edilir. Xoşbəxtik ki, müzəffər Ali Baş Komandan İlham Əliyevin Əsas Qanunumuzun bu tələblərini reallaşdırdığı günlərin şahidiyik.

Həmin maddənin üçüncü bəndi də, sözün həqiqi mənasında, Ana Qanun timsalındadır: "Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər".

Bu sətirləri qələmə alarkən Əsas Qanunumuza yenidən nəzər saldım və sitat kimi göstərdiyim bəndi oxuyanda ulu öndər Heydər Əliyevin ruhuna bir daha rəhmət oxudum. O, Azərbaycan vətəndaşının iradəsinə nə qədər hörmət və ehtiramla yanaşırmış? O, Azərbaycanın ərazi bütövlüyünü necə uca tutur, müqəddəsləşdirirmiş? Mən şahidəm ki, Prezident İlham Əliyev sentyabrın 27-də başlanan əks-həmlə hərbi əməliyyatları zamanı Konstitusiyamızın bu prinsipinə Heydər Əliyevin adına layiq ehtiram göstərdi.

... Ölkəmizdə başlanan hüquq islahatlarının ilk illərində mən dövlət radiosunun Xəbərlər baş redaksiyasında çalışırdım. Yeni Konstitusiyanın layihəsi barədə fikirlərini öyrənmək üçün tarix elmləri doktoru, professor, Azərbaycan Respublikası Milli Məclisinin I çağırış deputatı, 91-lərdən biri olmuş Səfiyar Musayevlə görüşdüm. Professor dedi ki, vaxt gələcək, Avropadan ölkəmizə gəlmiş hüquqşünaslar, konstitusiya mütəxəssisləri və ya deputatlar etiraf edəcəklər ki, Azərbaycan Konstitusiyası bir çox Avropa ölkələrinin əsas qanunlarından daha mükəmməl və humanitar istiqamətlidir. Professor əlavə etmişdi ki, Avropanın heç bir ölkəsinin Konstitusiyasında əsas insan hüquqlarını və azadlıqlarını təmin edən bu qədər maddə yoxdur: "Heydər Əliyev bizim Konstitusiyamızın layihəsini belə işləyib".

Səfiyar müəllimin verdiyi həmin proqnozların reallaşdığını 2013-cü ildə keçirilmiş prezident seçkilərindən sonra şəxsən gördüm. Avropadan gəlmiş müşahidəçilərdən biri ona qədər mikrofonun qarşısında dedi ki, sizin Seçki Məcəlləniz də, Əsas Qanunuz da bəzi Avropa ölkələrinin anoloji sənədlərindən xeyli dərəcədə təkmildir.

... Bu gün Azərbaycan Respublikası Konstitusiyasının 25 yaşı tamam olur. Ekspertlərin fikrincə, ümummilli lider Heydər Əliyevin siyasi irsinin ən mühüm nümunələrindən biri də Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsidir. 1995-ci il noyabrın 12- də bilavasitə ulu öndərin rəhbərliyi ilə hazırlanmış Konstitusiyanın qəbul edilməsi milli tariximizdə yeni səhifə açmışdı. Gənc müstəqil Azərbaycan dövlətinin hüquqi, siyasi və iqtisadi inkişafının hədəf və istiqamətləri məhz həmin Ana Qanunda müəyyənləşdirilmişdi.

Dəfələrlə qələmə aldığımız həqiqətdir ki, həmin tarixi hadisə humanizm və demokratiya prinsipləri ilə ölkədə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, dövlətçiliyimizin tərəqqisi üçün möhkəm zəmin yaratmışdı. Hüquqşünasların fikrincə, Əsas Qanunun qəbul edilməsi demokratik dəyişikliklər üçün yeni imkanlar açaraq, insan hüquq və azadlıqlarının həyata keçirilməsinə əlverişli şərait yaratmış, ictimai həyatın bütün sahələrinin inkişafına təkan vermiş, dövlətçiliyin formalaşmasına xidmət edən mühüm addım olmuşdur. Konstitusiya dövlətçilik quruculuğuna müasir cəmiyyət tələblərindən yanaşaraq, dövlətin ali məqsədinin insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsi olduğunu müəyyənləşdirmişdir.

Bu yubiley günündə xüsusilə qeyd edilməli məqamlardan biri də odur ki, həm ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev Konstitusiya da daxil olmaqla, qəbul edilmiş qanunlara ehkam kimi baxılmasının əleyhinə olublar. Çünki beynəlxalq aləmdəki elmi-texniki tərəqqi, dünyanın qloballaşması və Azərbaycanın sürətli inkişafı qanunvericilik bazasının da müasirləşdirilməsini tələb edir. Odur ki, Konstitusiyanın qəbulu zamanı onun tənzimetmə predmetini təşkil edən ictimai münasibətlər və bu münasibətlərin tərkib hissəsi olan hüquqi, siyasi, sosial və iqtisadi vəziyyət dəyişdikcə, eləcə də ictimai münasibətlər müasir tendensiyalara uyğun inkişaf etdikcə konstitusiyaların da təkmilləşdirilməsi, onlara müəyyən əlavələrin və dəyişikliklərin edilməsi zərurəti meydana çıxır.

Bu baxımdan ölkəmizdə 2002-ci il 24 avqust, 2009-cu il 18 mart və 2016-cı il 26 sentyabr tarixlərində keçirilmiş ümumxalq səsverməleri – referendumlarda insan və vətəndaş hüquqlarının və azadlıqlarının qorunması, eyni zamanda, ölkəmizdə demokratik dəyərlərin gücləndirilməsi zərurətindən irəli gələrək Konstitusiyaya əhəmiyyətli əlavələr və dəyişikliklər edilmişdir. Bu isə Əsas qanunumuza xüsusi dinamizm gətirmişdir.

Yeri gəlmişkən, Azərbaycan dövləti Konstitusiyanın bizə verdiyi imkanlara uyğun olaraq, yeniləşməni, müasirləşməni, idarəetmənin daha da təkmilləşdirilməsini daim davam etdirir. Bu il martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında geniş nitq söyləyən Prezident İlham Əliyev xatırlatmışdır ki, ölkənin qüdrətləndirilməsini, cəmiyyətimizin daha da demokratikləşdirilməsini və insanlarımızın daha firavan yaşamasını təmin etmək üçün islahatları davam etdirəcəyik.

Məlum olduğu kimi, islahatların yeni mərhələsi 2018-ci ilin prezident seçkilərindən sonra başlamışdır. Bu islahatları dövlət başçımız andiçmə mərasimində bəyan etmişdi. Prezident demişdir: "İslahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. Son müddət ərzində Prezident Administrasiyası, demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır. Bu şöbələrin yaradılması, eyni zamanda, dediyim sözləri bir daha təsdiqləyir, bizim niyyətimizi təsdiqləyir. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq".

Bu isə Prezident İlham Əliyevin Heydər Əliyev siyasi kursunu böyük ehtiramla davam etdirməsinin göstəricisidir. Çünki ulu öndər Heydər Əliyev deyirdi: "Konstitusiya birinci növbədə dövlətlə, hakimiyyətlə xalqın arasında olan münasibətləri özündə əks etdirməlidir. Hakimiyyət bölgüsü, qanunvericilik, ali icra, məhkəmə hakimiyyətləri -- bunların hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır. Dövlət xalqın işi olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitusiyamızın əsasını təşkil etməlidir".

… 25 yaşın mübarək, Əsas Qanunumuz! Müzəffər Ali Baş Komandanımız və rəşadətli Azərbaycan Ordusu sənin bu ad günün ərəfəsində xalqımıza möhtəşəm sevinc bəxş etdi. Bizim Konstitusiyamızda ərazi ilə bağlı olan maddə artıq tamamilə günün reallığına çevrilmişdir: "Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir".

Gözün aydın, odlar yurdu! Qarabağ Azərbaycandır!

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***